**İki sahil.-**2024.-5 aprel.-№60.-S.5.

# Ağdaban faciəsi: İnsanlıq tarixinin qara səhifəsi

**1992-ci il aprelin 8-nə keçən gecə Kəlbəcər rayonunun Ağdaban kəndində törədilən faciə iki yüz ilə yaxın müddətdə erməni millətçiləri tərəfindən azərbaycanlılara qarşı davamlı olaraq həyata keçirilən etnik təmizləmə və soyqırımı siyasətinin növbəti mərhələsi idi**

**Sevinc Azadi**

32 il öncə erməni cəlladları tərəfindən törədilən Ağdaban soyqırımı tarixdə bəşəriyyətə qarşı törədilmiş ən böyük cinayətlərdən biri hesab edilir. Bu hadisə Qarabağın qala qapısı Kəlbəcəri ələ keçirmək üçün erməni separatçılarının "böyük Ermənistan" yaratmaq xülyası ilə Azərbaycan xalqına qarşı törətdiyi dəhşətli soyqrım faktıdır. İstər hərb qanunlarına, istərsə də bütün dünyada qəbul olunmuş insan hüquq və azadlıqlarına sığmayacaq səviyyədə soyqırıma "imza atan" erməni qəsbkarları qırğın zamanı bütöv bir kəndi tamamilə yandırmış, yüzlərlə dinc sakini öldürmüş, işgəncələr vermiş, yurdundan didərgin salmışlar. Ağdaban faciəsi Ermənistan silahlı qüvvələrinin bundan əvvəl Xocavəndin Qaradağlı kəndində, Xocalıda, Goranboy rayonunun Ballıqaya kəndində və digər yerlərdə azərbaycanlı əhalini kompakt şəkildə məhv etmək niyyəti ilə törədilmiş silsilə kütləvi qırğın aktlarının davamı idi.

Ağdaban kəndinin işğalına aparan yol 1989-cu il iyulun 10-da başlamışdı. Həmin gün Ağdabanda baş verən hadisə erməni quldurlarının həyata keçirmək istədikləri çirkin planın tərkib hissəsi idi. Həmin dövrdə bu cür hücumların qarşısının alınması məqsədilə Ağdaban kəndində yaradılan yerli özünümüdafiə könüllülər dəstəsinin komandiri Nəsimi Səfərov xatırlayır: “1989-cu il iyulun 10-da sübh tezdən Ağdabanın ətrafındakı təpələrdə toplanan şübhəli adamlar narahatlığa səbəb olduqları üçün bir qrup sakinlə onların yanına getdik. Təxminən 150-200 nəfər silahlı erməninin qruplar şəklində “Ağdabanın yalı” deyilən ərazidə toplaşdığını gördük. Həmin qrupa hamının “daşnak Suren” kimi tanıdığı Qaqo adlı qoca kolxoz sədri başçılıq edirdi. Onlar açıq şəkildə bizə bildirdilər ki, Yerevandan gələn əmr əsasında Ağdabanı boşaltmalıyıq. Əgər müqavimət olarsa kənd yandırılacaq, əhali gülləbaran ediləcək. Kəndə qayıdan kimi bu barədə Kəlbəcər rayon rəhbərliyinə məlumat versək də, hayımıza yetən olmadı. Elə həmin gün kənd əhalisini, xüsusilə yaylaqda olan qız-gəlini erməni təcavüzündən qorumaq üçün yerli özünümüdafiə dəstəsi təşkil etdik. Ov və tir tüfəngləri ilə silahlanmış kənd əhalisi həmin gecəni səhərədək keşik çəkdi. Ertəsi gün ermənilər hiylə işlədərək yaylaqlarımıza soxulmaq istəsələr də, qarşısını aldıq və 9 silahlı erməni əsir götürüldü. Sonradan əsirlərdən biri qaçmağa nail olsa da, digər 8 ermənini kəndə gətirərkən rus komendaturasının əsgərləri onları bizdən alıb rayon mərkəzinə apardı. Həmin hadisədən sonra Ağdaban kəndinin dincliyi pozuldu”.

1992-ci il aprelin 8-nə keçən gecə Ermənistan silahlı birləşmələri Dağlıq Qarabağdakı separatçı erməni quldur dəstələrinin köməyi ilə Ağdaban və Çayqovuşan kəndlərinə hücum etdilər. Ermənilər planlı surətdə hərəkət edirdilər. Evləri kimlər qarət edəcək, mal-qaranı kimlər aparacaq, əliyalın insanları kimlər əsir götürəcək, müqavimət göstərənləri kimlər qətlə yetirəcək əvvəlcədən müəyyənləşdirilmişdi. Hücumdan xəbərsiz olan kənd əhalisi başıaçıq-ayaqyalın qarla örtülü meşələrə, dağlara dağıldı. Kəndləri müdafiə edən kiçik dəstə ermənilər tərəfindən məhv edildiyindən əhali müdafiəsiz qalmışdı. Erməni daşnakları Ağdaban kəndinə soxularaq 130-dan çox evi tamamilə yandırdılar, 779 nəfər dinc sakinə divan tutdular, kəndi tamamilə yer üzündən sildilər. Onlar yaşlı, qoca, qadın, uşaq demədən dünyada görülməmiş ən qəddar üsullarla dinc əhalini qətlə yetirərək soyqırımı aktı törətdilər. Nəticədə 67 nəfər qətlə yetirildi, 8 nəfər 90 -100 yaşlı qoca, 2 azyaşlı uşaq, 7 qadın diri-diri yandırıldı.

Ağır işgəncələrə məruz qalan, evləri viran qoyulan ağdabanlılar doğma kəndlərini tərk etmədilər. Ağdaban camaatı kəndi yenidən bərpa edib yaşamağa başladılar. Lakin 1993-cü il mart ayının 27-də erməni separatçıları Kəlbəcər rayonuna hücum edən zaman işğalı yenidən Ağdaban kəndindən başladılar. Erməni silahlıları kəndə yenidən hücum edərək onu viran qoydular. Beləliklə də onlar Ağdaban kəndində ikinci faciəni törətdilər. Ağdabanın ikinci dəfə işğalı Kəlbəcərin tamamilə Ermənistan tərəfindən zəbt olunması demək idi. Kəlbəcər hər tərəfdən mühasirəyə alınaraq 1993-cü il aprel ayının 2-dək erməni silahlı birləşmələri tərəfindən tamamilə işğal edildi.

Ermənilər Ağdabanı təkcə strateji məkan olduğu üçün deyil, əslində, Kəlbəcər ədəbi mühitinin beşiyi kimi də çoxdan hədəfə almışdılar. Onlar Ağdabanda yalnız soyqırımı törətmədilər. Erməni quldurları tərəfindən tarix, memarlıq və mədəniyyət abidələri dağıdıldı, müqəddəs ziyarətgah və məzarlıqlar təhqir olunaraq məhv edildi. Erməni separatçılarının Azərbaycan mədəni irsinə qarşı törətdikləri vandalizm siyasətinin davamı kimi Azərbaycanın klassik aşıq şeirinin ustadı Aşıq Qurbanın və oğlu Aşıq Şəmşirin əlyazmaları yandırıldı və talan olundu. Onu da vurğulayaq ki, faciə qurbanlarının 15 nəfəri Dədə Şəmşirin nəslindən idi. Erməni cəlladları Dədə Şəmşirin 28 yaşlı nəvəsi Qulu Qurbanovu diri-diri tonqalda yandırmış,

8 yaşlı Ülviyyənin gözləri qarşısında atası Camalı güllələmiş, özünü isə kartof quyusunda diri-diri basdırmışdılar.

Qeyd edək ki, 1993-cü il aprelin 2-də işğal olunan və uzun illər əsarətdə olan Kəlbəcərdə 511 dinc sakin öldürülmüş, 321 nəfər əsir götürülmüşdür. 60 min kəlbəcərli respublikanın 56 rayonunun 770 yaşayış məntəqəsində müvəqqəti məskunlaşmağa məcbur olub. İşğal nəticəsində onlarla tarixi-mədəniyyət abidəsi, 97 məktəb, 9 uşaq bağçası, 116 kitabxana, 43 klub, 42 mədəniyyət evi, tarix-diyarşünaslıq muzeyi, 9 xəstəxana, 75 tibbi məntəqə, 23 ambulatoriya, 9 aptek, yüzlərlə inzibati bina, minlərlə mənzil, yüzlərlə maşın, texnika və sair talan edilib, dağıdılıb və rayonun milyardlarla manatlıq sərvəti Ermənistana daşınıb.

İşğaldan azad edildikdən sonra Kəlbəcərə səfər edən Prezident İlham Əliyev buradakı erməni vəhşiliyi ilə bağlı deyib: "Baxın, görün, şəhər ermənilər tərəfindən tamamilə dağıdılmışdır. Vəhşi ermənilər başqa şəhər və kəndlərimiz kimi, Kəlbəcəri də dağıdıblar. Bütün binalar dağıdılıb. Bəzi binalarda ermənilər qanunsuz yaşayırdılar. Buradan çıxanda o binaları da yandırıb, sökdülər. Vaxt dəyişir, amma erməni faşizminin eybəcər sifəti dəyişmir. 1990-cı illərin əvvəllərində bu torpaqları işğal edərkən bizim şəhər və kəndlərimizi dağıtmışdılar. 2020-ci ildə biz bunları buradan qovanda da gedə-getdə ağacları kəsib, yandırıb, binaları dağıdıblar".

Tarix yaşanan, baş verən və yazılandır... Bu faciəyə ilk hüquqi-siyasi qiymət verən ulu öndər Heydər Əliyev Ağdabanda baş verənləri bəşəriyyətə qarşı törədilən ən böyük cinayət adlandırıb, bunu bütün insanlıq adına utanc kimi səciyyələndirib. Ağdaban qətliamı törədilmə spesifikasına və xarakterinə görə BMT Baş Assambleyası tərəfindən 9 dekabr 1948-ci il tarixli "Soyqırım cinayətinin qarşısının alınması və ona görə cəzalar" Konvensiyasının müddəalarına uyğundur, beynəlxalq hüquq əsasında soyqırım cinayəti aktı kimi tövsiyə etməyə imkan verir və Ağdaban kəndinin dinc əhalisinə qarşı erməni-rus silahlı qüvvələri tərəfindən törədilən bu qırğın soyqırım cinayəti kimi dünya cəmiyyəti tərəfindən tanınmalıdır.